AZƏRBAYCAN ORDUSU
2020.- 23 dekabr.- S.8.

*Redaksiyamızın poçtundan*

# Azərbaycan əsgərinə

***(esse)***

Oğlum bildiyim Azərbaycan əsgəri, balaca, çox balaca olanda, atamdan soruşdum: - Torpaq nədir? Atam cavab verdi: - Qara bağ, bu, torpaqdır.

Atamdan soruşdum: - Qara bağ nədir? Atam dedi: - Qara bağ, yəni, böyük bağ, bizim doğma Vətənimizdir. Atamdan soruşdum ki, bəs Vətən nədir?

- Odlar yurdu, ümidim mənim.
- Bəs Odlar Yurdu nədir?
- Azərbaycanın ruhudu.
- Bəs ruh nədir?
- İnam. İnamın gözünə bax, oğlum, Allahı hiss et və Torpağa baş əy.

Atam məni məbədə apardı və mən dua elədim, oğlum bildiyim Azərbaycan əsgəri, bu, birinci inam duam idi.

Balaca, çox balaca olanda, gecənin sonsuzluğunda anamın gözlərini ulduz kimi gördüm, Qarabağım!

Anamdan soruşdum ki, göz yaşı nədir?

Anam cavab verdi: - Göz yaşı - xoşbəxtlikdən qaynaqlanan qayğıdır, oğlum!

- Xoşbəxtlikdən qaynaqlanan qayğı nədir?
- Talan edilmiş Azərbaycanın qəlbi olan Qarabağın qanlı göz yaşları.

Göz yaşı qan tək uçurumdan sovrulurdu.

Anamın gözündə torpağımızın qapısını - Qarabağı, Xocalını gördüm, oğlum!

İnildəyən bir uşağın səsini eşitdim. O, Qarabağımızın yuxarı zirvələrindən süzülən aydın bir səda kimi muğamını oxuyurdu. Bizim, Azərbaycan torpağına yayılmış səhər şəbnəminin səsiydi Xocalı!

Uşağın gözlərindən axan qanlı göz yaşı. Gecənin qaranlığı altında gizlənmiş qatillər gördüm. Bunlar - qonşu torpaqdan gələnləriydi! Torpağımızı qəddarcasına şırımladılar. Məbədin gözünə baxdım. Qaranlıqda dua edən ağsaqqalları gördüm...

Qaranlıqda dəhşətli qorxu ilə səsini eşitdiyim uşağın harayına qaçdım və anamla atama müraciət etdim: - Bu bizim torpağımızdır, elə deyilmi? Bu Qarabağdır, elə deyilmi? Gecə vaxtı məni ata, ana və bacımdan niyə didərgin salırlar? Niyə atanın gözləri açıq, ölümün üzünə qorxu ilə baxır? Bacım niyə susub? Paltarlarda qan ləkələrinin izləri görsənir, yaralanmış sinəsi açıqdı... Ulduzum niyə söndü? Balaca bir xəyalım vardı...

Üzümü yuyub Qarabağıma aparacaq yol ilə getdim.

Oğlum, Azərbaycan əsgəri, əziz ümidim mənim, Qarabağımın gözünə bax. Dur və irəlilə, Azərbaycan əsgəri, oğlum mənim, əziz ümidim mənim. Torpaqlarımız işğaldan azad edildi. Öz muğamını doğma Qarabağımızın yolunda oxu. Qollarını uzadıb işğaldan qurtulmuş Qarabağın şəfəqinə uçaraq süz. Sənin gücün ədalətə inam və Tanrının gücüdür. Bu bizim torpağımızdır! Çünki sizin hamınız mənim oğullarımsınız. Doğma Qarabağ üzərində zəfər bayrağımızı dalğalandırdınız!

**Xristo STOYÇEV,**
**Bolqarıstan**